# Böyük iqtisadi potensiala malik D-8-in sıraları genişləndi

## İndi bu sırada Azərbaycanın da yeri var!




Bu gün Azərbaycan Prezident İlham Əliyevin rəhbərliyi ilə istər siyasət, istərsə də iqtisadiyyat və digər sahələrdə əldə etdiyi uğurlarla dünya arenasında özünəməxsus yer tutub. Dövlət başçısının müəyyənləşdirdiyi inkişaf strategiyasına uyğun olaraq dünya ölkələri və qlobal təşkilatlarla əməkdaşlığa önəm verilir. Hazırda Azərbaycan bir sıra mötəbər beynəlxalq təşkilatların üzvüdür.

Ölkəmiz belə nüfuzlu təşkilatlarla əməkdaşlıq etmək və onlarla bir sırada addımlamaq istiqamətində son iki onillikdə irəliləyərək, dünya birliyinə sistemli surətdə inteqrasiya etmək üçün uzun yol gedib. Bu il dekabrın 19-da bu yolda növbəti addımlardan biri də atılıb: Misirin paytaxtı Qahirə şəhərində İnkişaf etməkdə olan səkkiz ölkənin İqtisadi Əməkdaşlıq Təşkilatının (D-8) XI Sammiti zamanı Azərbaycan yekdilliklə D-8 təşkilatının üzvü seçilib.

Prezident İlham Əliyev Azərbaycanın D-8 təşkilatına üzv qəbul edilməsi ilə bağlı paylaşım edib. "Bu gün Qahirədə İqtisadi Əməkdaşlıq Təşkilatının (D-8) Zirvə toplantısı zamanı Azərbaycanın təşkilata üzv qəbul edilməsinə görə Türkiyə, Pakistan, Misir, İran, İndoneziya, Malayziya, Nigeriya və Banqladeşin dövlət və hökumət başçılarına təşəkkürümü bildirirəm. Azərbaycanın namizədliyinə dəstək bu ölkələr ilə səmimi dostluğumuzun və əməkdaşlığımızın göstəricisidir. Bu, bizim üçün qürur mənbəyidir. Öz həmkarlarımı əmin edirəm ki, Azərbaycan digər ölkələrlə birlikdə təşkilatın daha da inkişafı, islam həmrəyliyinin gücləndirilməsi üçün öz səylərini əsirgəməyəcəkdir".

→ 9

# Böyük iqtisadi potensiala malik D-8-in sıraları genişləndi

## İndi bu sırada Azərbaycanın da yeri var!

*Əvvəli 1-ci səh.*

Xatırladaq ki, təsisatın yaranma ideyası İslam Əməkdaşlıq Təşkilatının 1996-cı il oktyabrın 22-də İstanbulda keçirilmiş toplantısında irəli sürülüb. 1997-ci il iyunun 15-də İstanbulda keçirilən dövlət və hökumət başçılarının Zirvə görüşündə D-8 rəsmi olaraq təsis edilib. D-8 formatına Türkiyə, İran, Pakistan, Banqladeş, Malayziya, İndoneziya, Misir və Nigeriya daxildir. Təşkilatın üzvlərindən ikisi - Türkiyə və İndoneziya "Böyük iyirmilər"in (G-20) üzvüdür. D-8-in fəaliyyətinin əsas məqsədi üzv ölkələr arasında əməkdaşlığı inkişaf etdirmək, iqtisadi və sosial sahələrdə əlaqələri gücləndirməkdir. Əslində, Azərbaycan indiyədək D-8 İqtisadi Əməkdaşlıq Təşkilatının tamhüquqlu üzvü olmasa da, qurumun işində yaxından iştirak edib. Hətta Prezident İlham Əliyev 2017-ci ildə İstanbulda İnkişaf etməkdə olan səkkiz ölkənin İqtisadi Əməkdaşlıq Təşkilatının "Əməkdaşlıq yolu ilə imkanları artırmaq" devizi altında IX Zirvə görüşündə çıxış da edib.

"İslam Səkkizliyi" adlanan D-8 Asiya, Afrika və Avropanı əhatə edir. Quruma üzv dövlətlərin əhalisi ümumilikdə dünya müsəlmanlarının 60 faizini təşkil edir. D-8 4 trilyon dollardan artıq ÜDM-ə malikdir. Azərbaycanın belə bir quruma üzv seçilməsi Prezident İlham Əliyevin cəsarətli və qətiyyətli addımlarının, uğurlu xarici siyasətinin məntiqi davamı, beynəlxalq aləmdə artan nüfuzudur - bu, danılmz faktdır. Bu, həm də Azərbaycanın dünya ictimaiyyətinin rəğbətini qazanması və ona olan etimadın nümunəsidir. D-8-ə üzvlük onu da təsdiq edir ki, ölkəmiz gündən-günə yüksək iqtisadi göstəricilərlə gündəmə gəlir, davamlı olaraq ictimai-siyasi sabitliyini qoruyub saxlayır. Maraqlıdır ki, 28 il əvvəl yaradılan təşkilat indiyə kimi genişlənməyib. İlk dəfə Azərbaycanın timsalında D-8 genişləndi. Bu da bizə onu deməyə əsas verir deyək ki, həmin genişlənmə rəsmi Bakının regionda və beynəlxalq müstəvidə yaratdığı yeni geosiyasi reallıqların təzahürü olmaqla yanaşı, həm də Azərbaycanın qüdrətli aktor kimi qəbul edilməsinin nəticəsidir.

Azərbaycanın D-8-ə qəbul edilməsi təkcə bu təşkilatın özünün deyil, həm də 57 müsəlman dövlətini özündə birləşdirən İslam Əməkdaşlıq Təşkilatının (İƏT) siyasi və iqtisadi cəhətdən güclənməsinə kömək edəcək. Bu güc imkan verəcək ki, Azərbaycanın iqtisadi və logistika imkanları üzv ölkələrin inkişafında böyük rol oynasın. Azərbaycan tranzit bir ölkə olaraq Şərq və Qərb arasında körpü rolunu oynamağa davam edəcək. D-8-ə üzvlük isə bu istiqamətdə rəsmi Bakının rolunu daha da qüvvətləndirəcək.

Danılmaz faktdır ki, bu gün Azərbaycanın iqtisadi inkişafı, siyasi qüdrəti dünya miqyasında nüfuzunun durmadan artmasına təkan verir. Ölkəmizdə qlobal və regional layihələrin reallaşdırılması, bölgələrin tarazlı inkişafına hesablanan dövlət proqramlarının təsdiq edilməsi, qeyri-neft sektorunun daha da möhkəmlənməsi məqsədilə dövlət tərəfindən ardıcıl tədbirlərin davam etdirilməsi qeyd etdiyimiz uğurları şərtləndirir. Bazar iqtisadiyyatı prinsiplərinin cəmiyyətdə özünə dayaq tapması, özəl sektorun inkişafı uğurlu iqtisadi siyasətin nəticəsidir. Bütün bunlar Azərbaycanın beynəlxalq müstəvidə çəkisini artıran önəmli faktorlardır.

Qeyd edək ki, quruma üzv dövlətlərin rəhbərləri də bu göstəriciləri yüksək qiymətləndirirlər. Bu da ölkəmizin D-8-ə verə biləcəyi töhfənin nümunəsidir. Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan deyib: "Təşkilatımızı böyütmək, təsir sahəsini daha da genişləndirmək üçün yeni üzv və tərəfdaşlara qapımızın açıq olması lazımdır. Azərbaycanın təşkilatımıza üzv olması ilə birlikdə bu gün dünəndən daha güclüyük. Qardaş Azərbaycana D-8 ailəmizə xoş gəldiniz deyirəm". Misir Prezidenti Əbdül Fəttah əs-Sisi də ölkəmizi D-8 təşkilatına üzv olması münasibətilə təbrik edib. O, həmçinin təşkilatın adıçəkilən sammitində çıxışında bunun ölkələrimiz arasındakı münasibətlərdə yeni səhifə açacağını da diqqətə çatdırıb.



30 ilə yaxındır ki, islamofobiya adlı qorxulu bir tendensiya müsəlmanlara qarşı düşmənçilik toxumları səpərək, ayrı-seçkilik və zorakılıq aktları nümayiş etdirir. Baxmayaraq ki, ölkəmiz indiyə kimi islamofobiyaya qarşı fəal mübarizə aparıb, bu gün onun D-8-ə üzv qəbul olunması isə həmin mübarizəni daha da gücləndirəcək. D-8 ölkəmizin islamofobiyaya qarşı daha təsirli, daha qəti addımlar atmasına şərait yaradacaq. Bu, əlbəttə, təkcə Azərbaycan üçün yox, D-8-in bütün üzvləri və bütövlükdə müsəlman dünyası üçün ciddi dividenddir. Yüz illərlə Şərq ilə Qərb arasında körpü rolu oynayan, islam dünyasının əsas mədəni, dini və sivilizasiya mərkəzlərindən biri olan Azərbaycanın D-8-ə üzvlüyü təkcə islamofobiyaya qarşı mübarizəyə deyil, həm də islam həmrəyliyinin möhkəmlənməsinə, islam dəyərlərinin dünyada təbliğinə böyük töhfə olacaq.

*Züleyxa ƏLİYEVA,*
*"Azərbaycan"*

Azərbaycan.- 2024.- 21 dekabr (№ 282).- S. 1; 9.